**UDC:** 737.11
**LBC:** 63.221
**MJ №** 239
10.33864/2617-751X.2024.v7.i4.76-86

# Coins of Seljuk Sultan Tughril III Found in Azerbaijan and New Numismatic Facts

**Aygun Mammadova***

**Abstract.** In the article for the first time coinage of the period of Seljuk sultan Tughrul III (571-590 AH = 1176-1194) is viewed, especially coins with names of atabeks of Azerbaijan and this sultan are considered. The study of Azerbaijani mints, main coin denominations, topography of such finds along with the coverage of socio-economic relations of the medieval period, also contributes to the definition of the peculiarities of coinage. Along with information about coins minted during the reign of atabeks of Azerbaijan - Muhammad Jihan Pahlawan (571-582 AH = 1175-1186) and Qizil Arslan (582-587 AH = 1186-1191), the article reports about important military-strategic cities of Azerbaijan functioning also as production centers. As a result, the article reveals the reasons for the use of copper coins in the coinage of the period under investigation, the role of gold coins in trade relations, the religious title of Sultan Tughril III and other numismatic innovations, and notes existing errors. The year 2024 coincides with the memorable anniversary of the death of Sultan Tughril III, which increases the relevance of the article.

**Keywords:** Seljuks, sultan, Tughril III, coins, copper, Azerbaijan, hoard

---

* Doctor of Philosophy in History,
Senior Researcher of department “Scientific registration and classification of funds” of National Museum of History of Azerbaijan; Baku, Azerbaijan
E-mail: aygun_kons@mail.ru
https://orcid.org/0000-0002-0274-5191

**To cite this article:** Mammadova, A. [2024]. Coins of Seljuk Sultan Tughril III Found in Azerbaijan and New Numismatic Facts. *“Metafizika” journal, 7*(4), pp.76-86.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.76-86

***Article history:***
*Received: 09.09.2024*
*Accepted: 28.10.2024*

**УДК:** 737.11
**ББК:** 63.221
**MJ №** 239
10.33864/2617-751X.2024.v7.i4.76-86

# Монеты Сельджукского Султана Тогрула III, Найденные в Азербайджане и Новые Нумизматические Факты

**Айгюн Маммадова***

**Абстракт.** В статье впервые просмотрено монетное хозяйство периода правления сельджукского султана Тогрула III (571-590 г.х. = 1176-1194), особенно рассмотрены монеты с именами атабеков Азербайджана и этого султана. Изучение монетных дворов Азербайджана, основных монетных номиналов, топографии таких находок наряду с освещением социально-экономических связей средневекового периода, также способствует определению особенностей монетной чеканки. В статье наряду с информацией о монетах, чеканенных в период правления атабеков Азербайджана-Мухаммеда Джахана Пехливана (571-582 г.х. = 1175-1186) и Гызыл Арслана (582-587 г.х. = 1186-1191) сообщено о важных военно-стратегических городах Азербайджана, функционирующих также как производственные центры. В итоге статьи раскрыты причины использования в монетном хозяйстве расследуемого периода медных монет, роль золотых монет в торговых связях, религиозный титул султана Тогрула III и другие нумизматические новшества, отмечены существующие ошибки. 2024-й год совпадает с памятным юбилеем смерти султана Тогрула III, что повышает актуальность статьи.

**Ключевые слова:** сельджуки, султан, Тогрул III, монеты, медь, Азербайджан, клад

* доктор философии по истории,
Старший научный сотрудник отдела «Научной регистрации и классификации фондов» Национального Музея Истории Азербайджана; Баку, Азербайджан
E-mail: aygun_kons@mail.ru
https://orcid.org/0000-0002-0274-5191

**Цитировать статью:** Маммадова, А. [2024]. Монеты сельджукского султана Тогрула III, найденные в Азербайджане и новые нумизматические факты. *Журнал «Metafizika», 7(4),* с.76-86.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.76-86

***История статьи:***
*Статья поступила в редакцию: 09.09.2024*
*Отправлена на доработку: 07.10.2024*
*Принята для печати: 28.10.2024*

**UOT:** 737.11
**KBT:** 63.221
**MJ №** 239
10.33864/2617-751X.2024.v7.i4.76-86

# Səlcuq Sultanı III Toğrulun Dövrünün Azərbaycan Sikkələri və Yeni Numizmatik Faktlar

**Aygün Məmmədova***

**Abstrakt.** Məqalədə ilk dəfə olaraq Səlcuq sultanı III Toğrulun (hicri 571 -590 = 1175-1194) hakimiyyəti dövründəki pul təsərrüfatına nəzər salınmış, Azərbaycan hökmdarlarının bu sultanla birgə adlarının zərb edildiyi sikkələr haqqında məlumat verilmişdir. Araşdırılmağa cəlb edilən dövrdə Azərbaycanda fəaliyyət göstərən zərbxanalar, başlıca sikkə nominalları, belə tapıntıların topoqrafiyası orta əsrlər dövrünün sosial-iqtisadi əlaqələrini açıqlamaqla yanaşı dövrün sikkə zərbinin səciyyəvi xüsusiyyətlərini müəyyən etməyə yardım edir. Azərbaycan hökmdarları - I Əhsitan bin III Mənuçehr (1160-1197), Muhəmməd Cahan Pəhləvan (hicri 571-582/1175-1186), Qızıl Arslan (hicri 582-587/1186-1191) və Əbubəkr bin Muhəmmədin (587-607 = 1191-1210) hakimiyyəti dövründə pul təsərrüfatında istifadə edilən sikkələr barədə məlumatın təqdim edildiyi məqalədə dövrün başlıca hərbi-strateji və ticarət mərkəzləri olan şəhərlərin həm də istehsalat məkanları olaraq fəaliyyət göstərdiyi qənaəti vurğulanmışdır. Yekunda tədqiqata cəlb edilən dövrün pul təsərrüfatında üstünlük təşkil edən mis sikkələrin iştirakı, dövrün ticarət əlaqələrində qızıl sikkələrin rolu, sultan III Toğrulun həm hökmdarlıq, həm də dini titulu və digər numizmatik açıqlamalar təqdim edilmiş, mövcud yanlışlıqlara aydınlıq gətirilmişdir.

**Açar sözlər:** Səlcuq, sultan, III Toğrul, sikkələr, mis, Azərbaycan, dəfinə

* Tarix üzrə fəlsəfə doktoru,
Milli Azərbaycan Tarixi Muzeyinin “Fondların elmi uçotu və təsnifatı” şöbəsinin böyük elmi işçisi; Bakı, Azərbaycan
E-mail: aygun_kons@mail.ru
https://orcid.org/0000-0002-0274-5191

**Məqaləyə istinad:** Məmmədova, A. [2024] Səlcuq sultanı III Toğrulun Azərbaycanda aşkarlanan sikkələri və yeni numizmatik faktlar. *“Metafizika” jurnalı, 7*(4), səh.76-86.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.76-86

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 09.09.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 07.10.2024*
*Çapa qəbul edilmişdir: 28.10.2024*

## 1.Giriş

Müasir dövrümüzdə numizmatik faktlar - sikkələrin tətbiqi ilə tariximizin tədqiqi və təbliğinə daha çox diqqət yetirilir.

2024-cü il bir sıra dövlət sərəncamları ilə yaddaşlarda qalmışdır [8]. Bunların sırasında “Şuşa İslam mədəniyyətinin paytaxtıdır” mövzusunda olan tədbirlərdə tarixi məlumatlara da istinad edilmişdir.

Azərbaycan tarixində orta əsrlər dövrü İslam mədəniyyətinin intibahı ilə iz qoymuşdur. Bu mədəniyyəti təmsil edən vasitələrdən biri və ən önəmlisi - orta əsr ustalarının əl əməyi ilə hasil olan sikkələrdir.

Məqalədə ilk dəfə olaraq Azərbaycanın müxtəlif məkanlarında aşkarlanmış şirvanşah-Kəsrani I Əhsitan bin III Manuçehr (1160-1197), Azərbaycan atabəyləri (Eldənizlər- Muhəmməd Cahan Pəhləvan- 1175-1191, Qızıl Arslan- 1186-1191, Əbubəkr- 1191-1211) və Səlcuqlu sultanı III Toğrul bin Arslanın adından zərb edilmiş sikkələr haqqında məlumat verilib. Hazırda belə sikkələr bir sıra muzeylərdə və şəxsi kolleksiyalarda qorunur.

Səlcuqlular (Səlcuqilər, Səlcuqlu, Səlcuqi) sülaləsinin aşağıdakı adları qeyd edilən hökmdarlarının sikkələri hazırda haqlı olaraq “İslam dünyası” bölməsində təqdim edilir:

1.II Maḥmud (511-525 = 1117-1130, Muğisəddin Əbul-Qasım b. Muḥəmməd)

2.Davud (525-526 = 1130-1132, Qiyasəddin b. Maḥmūd)

3.II Ṭoğrul (526-529 = 1131-1134, Ruknəddin b. Muḥəmməd)

4.Məsud (529-547 = 1134-1152, Qiyasəddin b. Muhəmməd)

5.Muḥəmməd (533 = 1138-1139, Muizzəddin)

6.III Məlikşah, (I hakimiyyəti - 547-548 = 1152-1153, Muinəddin Əbəl Fəṭḥ b. Maḥmud)

7.II Muḥəmməd (548-554 = 1153-1159, Ruknəddin b. Maḥmūd)

8.Süleymanşah, (555-556 = 1160-1161, Qiyasəddin b. Muḥəmməd)

9.Arslan (556-571 = 1160-1176, Muizzəddin Əbul-Muẓəffər b. Ṭughril II)

10. III Ṭoğrul (571-590 = 1175-1194; Ruknəddin b. Arslan [9].

Bu canişinlərdən sonuncusu - III Toğrul bin Arslan yazılı mənbələrə əsasən 20 ildən artıq hakimiyyətdə olub. Bu sultanın hakimiyyəti ilə paralel olaraq Azərbaycanda hansı sikkələr zərb edilirdi? Bu sual məqaləmizdə araşdırılmışdır.

## 2.Şirvanşah-Kəsrani - I Əhsitan bin III Manuçehr (h. 556-593 = 1160-1197) dövrünün sikkələri

Şirvanşah-Kəsrani - I Əhsitan bin III Manuçehrin (h. 555-593 = 1160-1197) və Səlcuqlu sultanı III Toğrulun hakimiyyəti dövründə Azərbaycanda müxtəlif möhürlü mis dirhəmlər zərb edilmişdir. Belə sikkələrin tərkibində çox az sayda gümüş var idi [Злобин, s.258-333].

Dövrün mis dirhəmlərindən (1-6 q) bəzilərinə Abbasi xəlifəsi - əl-Mustədinin (h. 566-575 = 1170-1180), digərlərinə isə ən-Nasirin (h. 575-622 = 1179-1225) adları həkk edilib. Zərbxana və zərb tarixinin nadir halda həkk edildiyi belə sikkələrə əsasən III Toğrul "sultan", I Əhsitan isə "əzəmətli məlik", "şirvanşah" titullarına malik idilər. Belə sikkələrə hər iki hökmdarın ata adları və digər dini ifadələr (Allahdan başqa ilah yoxdur, vahiddir, şəriki yoxdur, Muhəmməd Allahın elçisidir və d.) da zərb edilib. Səkkizguşəli möhürü olan mis dirhəmlər xüsusilə maraqlıdır [Злобин, s.281].

I Əhsitan bin III Manuçehr, Səlcuqlu sultanı III Toğrul və xəlifə ən-Nasirin adları olan gümüş suyuna tutulmuş dirhəm hazırda Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunur [Rəcəbli, s.47; şəkil 1].



**Şəkil 1. NF 3970. Şirvanşah-Kəsranilər. I Əhsitan bin III Mənuçehr, Səlcuqlu sultanı III Toğrul, xəlifə ən-Nasir, 2 q**

I Əhsitan bin III Mənuçehrin hakimiyyəti dövründə Şirvanda yüksək dövlətçilik və mədəni inkişaf müşahidə edilmişdir. Özündən əvvəlki hökmdarlardan fərqli olaraq bu hökmdar dövründə çoxsaylı və müxtəlif tipli gümüş suyuna tutulmuş dirhəmlər zərb edilmişdir [Злобин, s.247]. Bu dövrdə zərbxanalar əsasən Bakı, Şamaxı, Şabran, Dərbənd şəhərlərində fəaliyyət göstərirdi.

Sultan III Toğrul və Azərbaycan atabəyləri (Eldənizlər) - Muhəmməd Cahan Pəhləvan (hicri 571-582 / 1175-1186), Qızıl Arslan (hicri 582-587 / 1186-1191) və Əbubəkr bin Muhəmməd (587 – 607 = 1191 – 1210) eyni dövrdə hakimiyyətdə olublar. Dövrün sikkələri pul təsərrüfatını açıqlayan faktlardır.

**3.Muhəmməd Cahan Pəhləvan ibn Eldəniz (571-582 = 1175-1186) dövrünün sikkələri**

Əbu Cəfər Nüsrətəddin Muhəmməd Cahan Pəhləvan dövrünə aid qeyri-sabit çəkili mis sikkələrinin bəzilərinə onun adı və titulları (“əzəmətli məlik”, “əzəmətli atabəy”, “əzəmətli sultan”, “dünya və dinin əzizi (Günəşi)”, “aləmin məliki”, “ədalətli” və b.), digərlərinə isə həm onun adı, həm də qardaşı Müzəffərəddin Qızıl Arslanın (1186-1191) adı və titulları (“əmirlərin əmiri”), başqa bir qisminə - Səlcuqlu sultanı III Toğrul (1177-1194), Abbasi xəlifəsi - Mustədinin (1170-1180), ən-Nasirin (1180-1225) adları həkk edilmişdir.

Muhəmməd Cahan Pəhləvan hakimiyyətə gəldikdən sonra “əmirlərin əmiri” tituluna layiq görülən qardaşı Qızıl Arslanı qoşun rəhbəri və Azərbaycan ilə Arranın canişini təyin etmişdir. Bu dövrün sikkələrinin bəzilərinə müxtəlif təsvirlər (alov, qılınc) həkk edilib [Məmmədova, 2021 s.10].

Müvafiq dövrün sikkələrinə Muhəmməd Cahan Pəhləvan ilə birgə aşağıdakı hökmdarların adları həkk edilib:

1. 571 = 1175 - əl-Mustədi və Arslan;
2. 571-575 = 1175-1179-ci illərdə:
- əl-Mustədi və Arslan;
- əl-Mustədi və III Toğrul.
3. 571-582 = 1176-1186-cı illər - “şəms əl-dunya vəd-din” (dünya və dinin Günəşi) və “əmir əl-uməra” (əmirlərin əmiri) sözləri ilə.
4. 575-582 = 1179-1186-ci illərdə aşağıdakı hökmdarlarla:
- ən-Nasir;
- əl-Nasir və III Toğrul;
- əl-Nasir, anonim sultan və Qızıl Arslan [Məmmədova, s.10].

Azərbaycan atabəyi Muhəmməd Cahan Pəhləvan, Səlcuqlu sultanı III Toğrul, Abbası xəlifəsi əl-Mustədinin adları həkk edilmiş, üzərində xəncər təsviri olan mis dirhəm (NF 30175; 15,05 q, diametr = 27-29 mm) hazırda Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunur. Bu sikkəyə əsasən III Toğrul “əzəmətli sultan” tituluna malik idi.

Numizmatik tapıntılara əsasən, dövrün sikkələrinə Azərbaycan atabəyi Muhəmməd Cahan Pəhləvan öz adını nəinki xəlifə əl-Mustədi (1170-1180), həm də xəlifə ən-Nasirlə (1180-1225) və sultan III Toğrulla həkk etdirmişdir. Aşağıda fotosu təqdim edlən sikkədə sultan III Toğrulun adı ilə birgə atası Arslanşahın adı da vardır (şəkil 2).



**Şəkil 2. Mis dirhəm. Azərbaycan atabəyləri (Eldənizlər). Muhəmməd Cahan Pəhləvan, xəlifə ən-Nasir, sultan III Toğrul, 13,1 q** [10]

Əsasən Ərdəbil zərbxanasında istehsal edilən bu ağır çəkili sikkələr görünüş baxımından fərqlidir. Bəzi hallarda dairəvi, bəzən isə itiuclu formalarla zərb edilən bu mis sikkələrin bəzilərinə Qurani-Kərimin “Tövbə” surəsinin 33-cü ayəsindən (həmçinin «Saf» surəsinin 9-cu ayəsi, «Fəth» surəsinin 28-ci ayəsi) bir hissə həkk edilmişdir. Ayənin açıqlaması belədir:

محمّد رسول‌اللّه   هُوَ الَّذِي أَرْسَلَ رَسُولَهُ بِالْهُدَىٰ وَدِينِ الْحَقِّ لِيُظْهِرَهُ عَلَى الدِّينِ كُلِّهِ وَلَوْ كَرِهَ الْمُشْرِكُونَ

- «Allahın elçisi Məhəmməd müşriklərin müqavimətinə baxmayaraq, Onu (İslamı) başqa dinlərdən üstün etmək üçün göndərilib» həkk edilirdi (şəkil 3).



**Şəkil 3. Mis dirhəm. Azərbaycan atabəyləri (Eldənizlər). Muhəmməd Cahan Pəhləvan, xəlifə əl-Mustədi, sultan III Toğrul, 14, 38 q [11]**

Azərbaycan atabəyi Muhəmməd Cahan Pəhləvan və Səlcuqlu sultanı III Toğrulun adı olan mis dirhəmlər nəinki Milli Azərbaycan Tarixi Muzeyində, həm də Moskva Dövlət Muzeyində, Gürcüstan Dövlət Muzeyində, Dövlət Ermitajında, Kolumbiya Universitetinin Şərq İnstitutunda qorunur [Сейфеддини, 2004, с.99-102].

**4.Qızıl Arslanın (hicri 582-587/1186-1191) hakimiyyəti dövründə sikkə zərbi**

Azərbaycan atabəyi Müzəffərəddin Osman Qızıl Arslanla III Toğrulun mübarizəsi birincinin qələbəsi ilə nəticələnmişdi. Dövrün sikkələrində III Toğrulun adı yoxdur [Сейфеддини, 2004, с.101].

Pul təsərrüfatında istifadə edilən müxtəlif çəkili mis dirhəmlərə [Пахомов, 82 q; 7,76 q; 8,1 q; 8,7 q; 9,2 q] “atabəy” titulu ilə Qızıl Arslan Osman, xəlifə

ən-Nasir və sultan Səncərin adları həkk edilib [Сейфеддини, 2004, c.101-103].

Dövrün mis sikkələrində diqqəti cəlb edən bir qrup sikkəyə “zəfər” və “fərəc” sözləri, digər qrup sikkəyə isə (8,5 q; diametr = 27 mm) atabəy Əbubəkrin adı həkk edilib [Сейфеддини, 2004, c.102; Rəcəbli, 2012, s.147].

Dövrün sikkələrindəki yazılara əsasən Qızıl Arslan “əzəmətli məlik” və “əzəmətli atabəy” titullarına malik idi [Məmmədova, 2021, s.13].

**5.Əbubəkr bin Muhəmmədin (587-607 = 1191-1211) hakimiyyəti dövründə sikkə zərbi**

Azərbaycan atabəyi Nüsrətəddin Əbubəkrin müxtəlif çəkili [5,48 q; 6,64 q; 7,41 q; 7,2 q; 7,88 q; 15,77 q] mis sikkələrinə özünün və atası Cahan Pəhləvanın adları, həmçinin titulları (“əzəmətli atabəy”, “şahənşah”) həkk edilib. Belə sikkələrdə də III Toğrulun adı yoxdur [Сейфеддини, 2004, s.103-106].

Yuxarıda adlarını qeyd etdiyimiz atabəylərin bəzi sikkələrinə dövrün hərb sənətini təmsil edən silahlar – xəncər, yaba, yay ilə ox təsvirləri zərb edilmişdir.

Muhəmməd Cahan Pəhləvan (hicri 571-582/1175-1186), Qızıl Arslan (hicri 582-587/1186-1191) və Əbubəkr bin Muhəmməd (587-607 = 1191-1210) dövründə hərbi-strateji, iqtisadi baxımdan önəmli olan - Naxçıvan, Beyləqan, Şəmkir, Gəncə, Bərdə, Ərdəbil, Urmiya, Təbriz, Səlmas, Həmədan, Marağa, Dəbil və b. şəhərlərdə zərbxanaların fəaliyyət göstərdiyi söylənilə bilər.

**6.Azərbaycanda aşkarlanmış sultan III Toğrulun adı həkk edilmiş sikkələr**

1924-cü ildə Xızı rayonu yaxınlığındakı Altıağac kəndində içərisində sikkələr olan saxsı küp tapılmışdır. Növbəti il bu tapıntı Bakıya gətirilmiş və bu sikkələrdən 27 ədədi Azərbaycan Dövlət Muzeyinə təhvil verilmişdir.

Numizmatik təyinat nəticəsində şirvanşah – Kəsrani – I Əhsitan bin II Manuçehr (h. 555-593 = 1160-1197) və Səlcuqlu soltanları - Arslan şah (h. 556-571 = 1160-1176) və Toğrulun adlarından zərb olunmuş aşağı əyarlı, qeyri-düzgün zərb olunmuş mis sikkələr məlum olmuşdur [Пахомов, 1926, s.51; 4, s.370].

1940-cı il oktyabrında 13-də Azərbaycan Tarixi Muzeyinin əməkdaşlarından ibarət ekspedisiya üzvləri Kirovabad (Gəncə) şəhərinin “Qədim Gəncə” adlı şəhər yerində 106 ədəd mis sikkə tapıblar. Numizmatik təyinat nəticəsində Azərbaycan atabəyləri (Eldənizlər) – Eldəniz (h. 531-571 = 1136-1175), Muhəmməd Cahan Pəhləvan (h. 571-582 = 1175-1186), Əbubəkr (h. 587-607 = 1191-1210), Uzbək (h.607-622 = 1210-1225), Rum Səlcuqluları - II Qılınc-Arslan (h. 551-588 = 1155-1192), Şirvanşah-kəsranilər - Fərruxzad oğlu I Gerşasb (h.600-630 = 1203-1232), xarəzmşahlar

– Manquburni (Cəlaləddin Əbul Muzəffər, bin Muhəmməd – 617 – 628 = 1220 - 1230, h. 623 = 1226-1227) dövrünün mis sikkələri müəyyən edilmişdir. Bu sikkələr sırasında atabəy Məhəmməd Pəhləvanın və sultan Toğrulun adından zərb edilmiş bir ədəd mis sikkə də var idi [Пахомов, 1949, s.41].

**7.Səlcuqlu sultanı III Toğrul dövrünün yeni numizmatik faktları**

Bu sultanın şəxsi sikkə zərbini sübut edən tapıntılar dövrümüzədək çox az sayda gəlib çatmışdır.

Hazırda məlum olan sikkələr – müxtəlif çəkili (1,13 q; 2 q; 2,08 q; 3,16 q; 3,28 q; 3,78 q) qızıl dinarlardır (şəkil 4, ilk dəfədir çap edilir).



**Şəkil 4. Qızıl dinar. Səlcuqlular. Sultan III Toğrul və xəlifə ən-Nasir, 3,16 q** [12].

**8.Nəticə**

Beləliklə, XII əsrin II yarısında Azərbaycanın pul təsərrüfatında müxtəlif tipli mis sikkələrdən istifadə edilmişdir. Belə sikkələrə ərəb qrafikası ilə İslam dininin əsas yazıları, yerli hökmdar, sultan III Toğrul, ərəb xəlifəsinin adı, titulları həkk edilsə də, nadir hallarda zərbxana və zərb ili qeyd edilirdi. Bu səbəbdən də numizmatik təyinat zamanı əsasən sikkələrin metalına, tipinə, üzərindəki hökmdar adlarına xüsusilə diqqət edilir.

Dövrün beynəlxalq ticarətində sultan III Toğrulun adı olan müxtəlif çəkili qızıl dinarlardan istifadə edildiyini söyləmək, heç də əsassız deyil.

Numizmatik tədqiqatlara əsasən sultan III Toğrul "əzəmətli sultan" tituluna malik olmuşdur. Onun dini titulu isə "rüknəddin" (dinin təməli) idi.

Pul təsərrüfatı bir sıra nəticələr təqdim etməyə imkan verir. Bu dövrdə mis sikkələr əsas sikkə nominalı olaraq gümüş dirhəmləri əvəz edirdi. Belə mis sikkələrə yerli hökmdarla yanaşı xarici hökmdar adının həkk edilməsi siyasi deyil, ənənəvi əhəmiyyət daşıyırdı.

Məhz bu dövrdə başlıca hərbi-strateji və ticarət mərkəzləri olan şəhərlərdə (Bakı, Şamaxı, Şabran, Beyləqan, Dərbənd, Naxçıvan, Şəmkir, Gəncə, Bərdə, Ərdəbil, Urmiya, Təbriz, Səlmas, Həmədan, Marağa, Dəbil və d.) sikkə istehsalını həyata keçirən zərbxanalar fəaliyyət göstərirdi.

## ƏDƏBİYYAT

1. Məmmədova, A. M. (2021). *Azərbaycan atabəylərinin sikkələri. Kataloq*. Bakı: 40 s.
2. Rəcəbli, Ə. M. (2012). *Azərbaycan sikkələri. Kitab albom*. Bakı: Xalqbank, 357 s.
3. Rəcəbli, Ə. M. (2015). *Şirvanşahlar dövlətində sikkə zərbi (VIII – XVI yüzillər). Azərb., rus və ing. dillərində*. Bakı: Elm və təhsil, 240 s.
4. Злобин, Г. В. (2020). *Монеты Ширвана и ширваншахов династии Кесранидов (вторая династия – 330-784 / 941 - 1382)*. Москва: ИПЦ Маска, 800 с.
5. Пахомов, Е. А. (1926). *Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. I*. Баку, 68 с.
6. Пахомов, Е. А. (1949). *Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. V*. Баку, 44 с.
7. Сейфеддини, М. А. (2004). *Денежное обращение и монетное дело Азербайджана IX-XIV веков (при феодальном государстве Ширваншахов и Ильдегизидов, о данным нумизматики)*. Баку: Nafta Press, 267 с.

**Web resurslar:**

8. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (n.d.). *Şuşa şəhərinin 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər haqqında*. Retrieved from https://president.az/az/articles/view/62277
9. Zeno.ru. (n.d.). *Azerbaijani coins gallery*. Retrieved from https://www.zeno.ru/showgallery.php?cat=8355
10. Zeno.ru. (n.d.). *Image of Azerbaijani coin*. Retrieved from https://www.zeno.ru/showphoto.php?photo=261654&cat=5828&ppuser=&sortby=d&way=desc
11. Zeno.ru. (n.d.). *Image of Azerbaijani coin from Shamakhi*. Retrieved from https://www.zeno.ru/showphoto.php?photo=23206&cat=7053&ppuser=&sortby=d&way=desc
12. Biddr. (n.d.). *Auction of Azerbaijani coins*. Retrieved from https://www.biddr.com/auctions/stevealbum/browse?a=2214&l=2438311

## REFERENCES

1. Mammadova, A. M. (2021). *Coins of the Atabegs of Azerbaijan. Catalogue*. Baku: 40 p. (in Azerbaijani)
2. Rajabli, A. M. (2012). *Azerbaijani Coins. Book Album*. Baku: Khalqbank, 357 p. (in Azerbaijani)
3. Rajabli, A. M. (2015). *Coinage in the State of the Shirvanshahs (8th – 16th Centuries)*. In Azerbaijani, Russian, and English. Baku: Elm ve Tehsil, 240 p. (in Azerbaijani, Russian, and English)
4. Zlobin, G. V. (2020). *Coins of Shirvan and the Shirvanshahs of the Kesranid Dynasty (Second Dynasty – 330-784 / 941 - 1382)*. Moscow: IPC Maska, 800 p. (in Russian)
5. Pakhomov, E. A. (1926). *Coin Hoards of Azerbaijan and Other Republics, Regions, and Territories of the Caucasus. Issue I*. Baku, 68 p. (in Russian)
6. Pakhomov, E. A. (1949). *Coin Hoards of Azerbaijan and Other Republics, Regions, and Territories of the Caucasus. Issue V*. Baku, 44 p. (in Russian)
7. Seyfeddini, M. A. (2004). *Monetary Circulation and Coinage of Azerbaijan in the 9th-14th Centuries (under the Feudal States of the Shirvanshahs and Ildegizids, based on Numismatic Data)*. Baku: Nafta Press, 267 p. (in Russian)

**Web resource:**

8. Decree of the President of the Republic of Azerbaijan. (n.d.). *On Events Related to Declaring the City of Shusha the "Cultural Capital of the Islamic World" for 2024.* Retrieved from https://president.az/az/articles/view/62277 (in Azerbaijani)
9. Zeno.ru. (n.d.). *Azerbaijani Coins Gallery*. Retrieved from https://www.zeno.ru/showgallery.php?cat=8355 (in Russian)
10. Zeno.ru. (n.d.). *Image of Azerbaijani Coin*. Retrieved from https://www.zeno.ru/showphoto.php?photo=261654&cat=5828&ppuser=&sortby=d&way=desc (in Russian)
11. Zeno.ru. (n.d.). *Image of Azerbaijani Coin from Shamakhi*. Retrieved from https://www.zeno.ru/showphoto.php?photo=23206&cat=7053&ppuser=&sortby=d&way=desc (in Russian)
12. Biddr. (n.d.). *Auction of Azerbaijani Coins*. Retrieved from https://www.biddr.com/auctions/stevealbum/browse?a=2214&l=2438311 (in English)